M. Sejidzadə



# Qьzьl quş

84(5 Aze)-5
S37

M. SEJIDZADƏ

# QЬZЬL QUŞ

(AZƏRBAJÇAN EPOSLARЬNDAN ALЬNMЬŞ.
ORTA JAŞLЬ UŞAQLAR YCYN JAZЬLMЬŞ
DƏRD PƏRDƏLI MƏNZUM PJESA)

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KITABXANASI
INV. № 58813



Azərbaycan Mərkəzi
Dövlət Kitabxanası
45507

AzLQGI MQ
UŞAQ və GƏNÇLƏR ƏDƏBIJJATЬ NƏŞRIJJATЬ
Вакь—1939

*Bədii tərtiвat rəssam*
*K. Kazьmovundur*

*Redaqtoru. Ə. Fevzi*
*Texredaqtoru: M. F. Mirijev*
*Qorreqtoru: M. Balakişijev*

*Istehsalata verilmiş 21|IX-38. Capa imzalanmьş 21|IV-39. Cap listi 1½. Kaqьz formatь 82 × 110 1/32. Baş Mətвuat Mydirliji Myvəkkilliji № 3124. Nəşrijjat № 421 Tiraж 12000. Sıfariş № 1028.*

*Azərnəşr mətвəəsində cap olundu, 26-lar adьna „Kitaв Sarajь", Bakь, Əli Bajramov kycəsi.*

# IŞTIRAK EDƏNLƏR

1. Polad — Xalq qəhrəmanь.
2. Bahar — Joxsul вir kəndli qьzь.
3. Gylzar — Baharьn вaçьsь.
4. Əzdər xan — Muqanьn xanь.
5. Bəвir xan — Əzdər xanьn pəhlivanь.
6. Təlxək.
7. Aq dev.
8. Ə'janlar, nəkərlər.
9. Aslan.
10. Qьzьl quş.



## I PƏRDƏ

(Azərʙajçanьn kəndlərindən ʙiri, kənd daƣ dɵşyndə salьnmьşdьr, həm də şairanə ʙir mənzərəsi vardьr. Qadьnlar ʙulaqdan su dolduruʙ aparьr, muziqa calьnьr, Bahar ʙulaq ʙaşьnda oxujur).

B a h a r

Ɵmrymyzyn gylyny
Soldurur vəhşi jellər,
Baƣlarьn ʙylʙylyny
Susdurur xain əllər.

Zylymkar ʙəjlər, xanlar
Joxsula uddurur qan.
Zalьmlar, ev jьxanlar
Edir ɵlkəni viran.

Yrəklər dɵnyʙ qana,
Baxьşlarda janƣьn var.
Bir gyn gələr hejçana,
Ellər sel kimi çoşar.



Qojmaz ki, ɵz ʙaxtьnь
Qaraltsьn ev jьxanlar.
Jьxar zylmyn taxtьnь,
Məhv olar ʙəjlər, xanlar.

(Mahnь ʙitinçə Bahar səhəngini ʙulaqdan doldurmaƣa ʙaşlajьr. Bəʙir xanla xanьn nɵkərlərindən ʙeş nəfəri içəri girir)

B ə ʙ i r x a n

Sьxarьn gərək, dostlar,
Kimin nə şikarь var!
Atamьzьn malь tək
Bu saatda ʙɵlyşək.

1-çi n ɵ k ə r

Nejnək, nejnək, sьxaraq.
Mənim aldьƣьm ançaq
Bir cuxadьr, ʙir tuman,
Bir də ʙu ʙillur qəljan.
*(Dediji şejləri gɵstərir)*

2-çi n ɵ k ə r

Mənimki ʙir kɵjnəkdir,
Bir qəlʙir, ʙir ələkdir.
Mən də mərdy mərdana
Sьxarьram mejdana.
*(Dediklərini sьxarьʙ gɵstərir)*

3-çy n ɵ k ə r

Mən ʙir papaq almьşam,
Bir də qolʙaq almьşam.
*(Sьxarьʙ gɵstərir)*

4-çy nөkər

Bir gəlinin əjnindən
Bir don сьxarmьşam mən.

*(5-çi nөkər dinmir)*

Bəвir xan

Dostum, sənin nəjin var?

Nөkərlər

Tez ol, sən də tez сьxar!

5-çi nөkər

Mənim şikarьm ançaq
Olsa, indi olaçaq.

*(5-çi nөkər вunu dejiв Baharьn janьna qacьr, onun donunu əjnindən сьxarmaq istəjir)*

Aj qьz, iki ajdьr sən
Xana xəraç vermirsən.
Donunu сьxar gөrək!

Bahar

Rədd ol, qudurqan, kөpək!

*(5-çi nөkər xənçərini cəkmək istərkən Bahar onu səhənglə vuruв jьxьr)*

Bəвir xan

Tutun вu xain qьzь,
Bu alcaq uqursuzu!

*(Nөkərlər Bahara hyçum edir. Bahar qьşqьrьr)*



Bahar

Kөmək!...

*(Polad gəlir, nөkərlərə)*

Polad

Bir jьqьn ilan
Nə istəjir вir qьzdan?

Bəвir xan

Mejdan oxuma, cəkil!
Sənin vəzifən dejil
Bu işlərə qarьşmaq.

Polad

Cox səs-kyj salma, alcaq!
Mən saqkan jel olsanьz,
Siz çoşqun sel olsanьz,
Jenə onun janьndan
Өtə вilməzsiz

Bəвir xan

Neçə?

Polad

Bir dəfə acsam pənçə,
Hamьnьzь qьraram!

Bəвir xan

Bizi вilmə cox da xam...
Budur, вax, mejdan acьq,
Kişisən mejdana сьx.

*(Polad qьlьnçьnь cəkir. Bəвir xan və nөkərlər də qьlьnça əl atьrlar)*

Polad

Gurla, gurla, qьlьnçьm,
Qoj olsun xьnçьm-xьnçьm
Qaвaqьmdakь dyşman.

*(Qьlьnç gurlajьr, nəkərlər qьlьnçlardan qopan odlardan janьr)*

1-çi nəkər

Jandьm.

2-çi nəkər

Jandьm.

3-çy nəkər

Ah.

4-çy nəkər

Aman.

*(5-çi nəkər isə səz deməjə maçal tapmajьв jerə sərilir, вirçə Bəвir xan qacьв qurtarьr)*

Bahar

Saq ol, ej qəhrəman Polad,
Ijidlikdə cьxartdьn ad.

Polad

Bu ijidlik dejil, Bahar,
Zalьmlarьn çəzasь var...
Azqьn, murdar ilanlara,
Hajasьz pəhlivanlara
Bir dərs verdi вu qьlьnçьm...



Bahar

Hamь oldu xьnçьm-xьnçьm.
Bu qьlьnçla istəsən sən,
Lap xanь da əldyrərsən.

Polad

Şəksiz, вir gyn zylymkar xan
Paj alaçaq вu qьlьnçdan.

Bahar

Cox qəriвə вir qalxan var,
Gynəş kimi parьldajar.
O əlinə kecsə, inan
Sənə вatmaz вir qəhrəman.
Dyşmanlarla vuruşurkən
Əjər o qalxana desən:
„Parla, parla, ej qalxanьm!
Qoj kor olsun вu dyşmanьm!“
Qalxan gyn tək parьldajar,
Hər tərəfə işьq jajar,
Dyşmanlarьn вirdənвirə
Gəzy cьxar, dyşər jerə.

Polad

*(Sevinçlə)*

Bahar, o qalxan kimdədir?
Səjlə, hansь hakimdədir?

Bahar

O qalxan aq devdədir,
Bir sehirli evdədir.

Polad

Bunu hardan вilirsən?

Bahar

Kecən il вu evdə mən
Əsir idim aq devə,
Tykləri parlaq devə.
O dev məni aldatdь,
Gətiriв вəjə satdь.
Mənim sevimli Gylzar
Adlь вir вaçьm da var:
Dyşyв sehirli evə,
O da əsirdir devə.

Polad

And olsun вu uça daqьn —
Bu tarixi qoça daqьn
Qojnundakь çejranlara,
Başьndakь tərlanlara;
And olsun вu jyksək, dərin
Gøjlərdəki cicəklərin
Yrəkacan işьqьna,
Sevinç sacan işьqьna,
Aq dev olsa dənizlərdə,
Jyksək gøjdə, dərin jerdə,
Gərək tapam mən aq devi.
Ucurdam sehirli evi;
Alam parlajan qalxanь,
Məhv eləjəm azqьn xanь.



Bahar

Polad, oxun dəjməz daşa,
Bu diləjin gələr вaşa!

*(Aqlamaq səsi. Qara cadraja вyrynmyş вir qadьn aqlajьr)*

Polad

Kimdir вelə aqlajan,
Jeri, gøjy daqlajan?

Qadьn

Bu aqlajan mənəm, oqlum!
Baqlanmьşdьr əlim, qolum!

Bahar

Nə var, nə olmuşdur, ana,
Aqlajьrsan jana-jana?

Qadьn

Aqlajьram aqlar kimi...
Dərdim vardьr daqlar kimi.

Polad

Søjlə gərək, nə dərdin var!

Qadьn

Məni sojuв вəjlər, xanlar...

Bahar

Aj onlarьn dili jansьn,
Ev-eşiji alovlansьn!

Polad

Qalx ajaqa, gedək, ana!
Cox cəkməz ki, вəjə, xana
Çəza verər joxsul ellər.
Geçə kecər, acar səhər,
Cьxar qьzьl telli gynəş,
Zalьmlarь jaxar atəş.

Qadьn

Baqlanmьşdьr əlim, qolum,
Tərpənə вilmirəm, oqlum!

Bahar

Gedək acaq əl-qolunu!

Polad

Gedək xilas edək onu!

*(Bahar və Polad qadьnьn əlini acmaq ycyn ona jaxьnlaşьrlar. Qadьn cadra altьndan onlarьn gəzynə iki ovuç torpaq atьr; cadrasьnь вaşьndan gətyryr. Bəвir xan olduqu mejdana cьxьr, Polad və Bahar gəzyny ovuşdururkən Bəвir xan qьşqьrьr)*

Bəвir xan

Dostlar, gəlin!

*(Aqaçlarьn ardьndan вir necə nəkər cьxьr, Polad və Baharьn əl-qolunu вaqlajьr)*

Bahar

Ah... azqьnlar!..



Polad

Alcaq tylky, вiç, hijləkar...
Qyvvətlə iş gərər ijid —
Səndən daha jaxşьdьr it:
Hec olmazsa hyryr əvvəl,
Sonra tutur!

Bəвir xan

Danьşma, gəl!

*(Onlarь dartьr)*

Kim aq olsa вəjyk xana,
Batsьn gərək qьzьl qana!

Polad

Siz tylkysyz, xan çanavar...
Hər qьşьn вir вaharь var
Bir gyn gələr cicəkli jaz,
Bu coqundan əsər qalmaz!..

*(Pərdə)*





## II PƏRDƏ

(Xanьn sarajь. Hər tərəf qijmətli xalьlarla ʙəzənmiş. Pərdə acьldьqdan sonra xan ə'janlarla icəri girir;hər kəs ɵz jerində oturur).

Xan

*(Ə'janlardan ʙirinə)*

Durma, tez, Fətulla ʙəj,
Caƣьr, gəlsin ʙiç təlxək!
Gyldyrsyn ʙizi ʙir az,
Nəş'əmizi etsin saz.

*(Fətulla ʙəj ʙaş əjiʙ cьxьr. Təlxək icəri girir, xana ʙaş əjir)*

Xan

Təlxək, tez gyldyr ʙizi,
Şənləndir qəlʙimizi.

Təlxək

Hər əmrinə hazьram, xan!
Gyldyrərəm, ej hɵkmyran!
Iki şərtim vardьr ançaq:
Əvvəlinçi şərt ʙudur, ʙax,



Hər mahnьmьn son ʙəndini
Bir ə'jan eləsin təkrar.
Ikinçi—ədəʙ həddini
Kecsəm əjər, çəllad ja dar
Caƣьrьlmasьn...

Xan

Qorxma, ʙaşla!..

Təlxək

Başlajьram çanla-ʙaşla.

*(Dynʙəjini calьʙ oxujur)*

Dynən getmişdim ʙaƣa,
Gɵrdym suda qurʙaƣa,
Dejirdi: qur-qur-qur-qur...

*(Birinçi ə'jana)*

De gɵrək: qur-qur-qur-qur...

Birinçi ə'jan

Qur-qur-qur-qur-qur-qur-qur...

Təlxək

Dynən getmişdim daƣa,
Rast gəldim ʙir ulaƣa,
Gɵrdym anƣьrьr: ha-ha-ha...

*(Ikinçi ə'jana)*

Sən də de gɵrək: ha-ha-ha...

Ikinçi ə'jan

*(Anqьrьr)*

Ha-ha-ha...

Təlxək

Dynən сьхmьşdьm dyzə,
Rast gəldim вir əkyzə,
Gərdym dejir: mooo-moo-mooo...

*(Ycynçy ə'jana)*

Elə gərək: mo-mo-mo...

Ycynçy ə'jan

*(Əkyz kimi вəjyryr)*

Moo-moo-mooo...

Təlxək

Dynən getdim pəgəjə,
Rast gəldim вir kəpəjə,
Gərdym hyryr: ham-ham-ham...

*(Dərdynçy ə'jana)*

Bir hyr gərək: ham-ham-ham...

Ə'jan

*(It kimi hyryr)*

Ham-ham-ham...

Təlxək

Bəsdir dedim ordan-вurdan,
Daha səzym qurtardь, xan!



Mənə izn ver syryşym,
Bu məçlisdə kecməz işim.

Xan

Jox, вir az da danьş, təlxək!

Təlxək

Xan, mən əlym, məndən əl cək!
Janьnda var ala kəpək,
Boz qurвaqa, əkyz, eşşək,
Sən əzyn də вir hejvansan,
Zalьm, azqьn вir ilansan;
Bu məçlisdə kecməz işim,
Izn ver, qoj mən syryşym.

Xan

Ədəвsizlik! Çəllad!.. Çəllad!..

*(Çəllad girir)*

Xan

Bu təlxəji elə azad!

*(Çəllad təlxəjin вojnundan japьşьr)*

Təlxək

*(Baş əjir)*

Bu zarafatdьr, aj xan,
Bundan inçiməz insan!
Əzyn səz verdin ki, mən



F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KITABXANASI
INV. № 58813
15507

Danьşsam cərən-pərən,
Çoşmajasan dəniz tək.

Xan

*(Jumşalьr)*

Bu dəfə kecdim, təlxək!
Bir də caşьв, sən qələt
Eləsən, hələ-həlвət
Kəsdirərəm başьnь,
Asdьraram aşьnь...

Təlxək

*(Sevinçlə)*

Bu kor gəzym ystə, xan!

*(Ətrafa)*

Өlymdən qurtardьm çan.

*(Bəвir xan və nəkərlər Polad ilə Baharь gətirirlər)*

Bəвir xan

*(Baş əjir)*

Xan saq olsun, bu xain
Xan'ьqa вəsləjir kin.
Əlвirdir joxsullarla,
Dilвirdir aç qullarla.
Bunun вir qьlьnçь var,
Qoparьr gurultular;



Olsa min nəfər əskər,
Qьlьnç вirdən өldyrər.

Xan

*(Təəççyвlə)*

Jer yzyndə gər nələr var,
Insan gərsə hejran qalar...

Bəвir xan

Bu qьlьnçьn parlajan,
Gyn kimi işьq jajan
Gөzəl qalxanь da var,
Aq devdədir. Bu murdar
Istəjirdi aq devdən—
Tykləri parlaq devdən
Alsьn həmən qalxanь,
Gəlsin, məhv etsin xanь.
Bir hijlə qurdum mən də,
Xaini saldьm вəndə.
Qьrmançla vura-vura,
Cəkiв gətirdim вura.

Xan

*(Qəzəвlə Polada)*

Azqьn, jaramaz, asь!..

*(Ə'janlara)*

Nədir bunun çəzasь?

1-çi ə'jan

Baqlatdьrьn əl-qolunu,
On-on beş pişiklə bunu
Saldьrьn bir dar cuvala,
Zibilli, murdar cuvala,
Qamcь ilə bərk dəjdyryn...

2-çi ə'jan

Azqьnь dara cəkdirin.

3-çy ə'jan

Boqazьna vurdurun tьq!

4-çy ə'jan

Kəlləsinə caxdьrьn mьx.

*(Təlxək baş əjir)*

Təlxək

Mənə qalьrsa əjər,
Dyz dejil bu tədbirlər.
Cynki bu əlsə, qalxan
Ələ kecməz. Şanlь xan
Hələlik atsьn kini.
Gəndərsin bu xaini
Parьldajan qalxancьn,
Işьq jajan qalxancьn.
Elə ki, qalxan gəldi,
Xanьn kejfi kəkəldi,
Başqa işlər asandьr:
Bu bir jetim oqlandьr;
Qanadlansa, quş olsa,
Gəjlərə ucmuş olsa,
Qaca bilməz əlindən...



Xan

Dyzdyr!

1-çi nəkər

Xan saq olsun, mən
Qol qojmuram bu işə,
Dyşyrəm cox təşvişə.

*(Təlxəjə işarə ilə)*

Bunun səzynə bax san,
Bu xaini buraxsan,
Gedər, qajьtmaz geri.

Təlxək

Burax jersiz səzləri...

*(Qьza işarə ilə)*

Xan saq olsun, bu qьzь—
Bu işьqlь ulduzu
Girov saxlasan əjər,
Əmin ol, xain gələr.

Xan

Dyzdyr!

Ə'janlar

Dyzdyr!

Xan

*(Polada)*

Jaxьn gəl!
Səjlə, kimdir bu gəzəl?

Polad

Jurdumun cicəjidir,
Өlkəmin gөjcəjidir.
Qəlвimin atəşidir,
Өmrymyn gynəşidir.

Xan

Bildim! Qьz qalsьn вurda,
Sən get o qorxunç jurda,
Qalxanь gətir.

Polad

Ej xan!
Şyвhəsiz, gələr qalxan,
Ançaq вirçə şərtim var:
Mənim getdijim jollar
Doludur aslanlarla,
Qurdlarla, ilanlarla.
Bir insan oƣlu insan
Ora getməz qorxudan.

*(Qьlьnça işarə ilə)*

Bu dəjərli inçimi—
Gurlajan qьlьnçьmь
Mənə qajtarsan əjər,
Qarşьma cьxsa şirlər,
Əƶdəhalar, pələnglər,
Fillər, qurdlar, nəhənglər,



Qorxuв cəkinmərəm mən.
Gediв jaramaz devdən
Alaram aƣ qalxanь—
Gyndən parlaq qalxanь.

Xan

Razьjam; oƣlan, ançaq
Mənim də şərtim var, вax,
O şərt də вudur: əvvəl
Həвs olunar вu gөzəl,
Sonra da sən sarajdan
Cьxarsan, yc pəhlivan
Qьlьnçьnь gətirər,
Cөldə sənə jetirər.
Buna sөzyn varmь?

Polad

*(Əlaçsьz)*

Jox...

Təlxək

*(Ətrafa)*

Xana dəjsin iti ox!

Xan

Aparьn вu ƣəmzəli,
Inçə, dilвər gөzəli
Saxlajьn gizlin jerdə,
Qəsrinə cəkin pərdə.

*(Qьzь sol qapьdan, Poladь saƣ qapьdan aparьrlar)*

Polad

(*Gedərkən ətrafa*)

Şəksiz, dəjişər zaman,
Sizə qalmaz ʙu dəvran!..





## III PƏRDƏ

(Jaşьl ʙir daq. Daqьn qojnundan ʙulaq axьr. Hər tərəf sərv aqaçlarь və inçə cicəklərlə ʙəzənmiş, daqьn diʙində ʙir aslan qaraul cəkir. Daqьn kəlləsində aq dev uzanьʙ, parlajan qalxanь ʙaşьnьn altьna qojuʙ jatmьşdьr. Aq devin janьnda saclarь daqьnьq Gylzar oturuʙ, inçə kamanca calьr, asta-asta oxujur).

Gylzar

Bu daqlarьn maralьjam,
Mən jurdumdan aralьjam,
Yrəjimdən jaralьjam,
Əsir ediʙ məni aq dev.

Bu daqlarda, dərələrdə
Dyşmyşəm mən qəmə, dərdə,
Өmrym kecir qəriʙ jerdə,
Əsir ediʙ məni aq dev.

Jox janьmda ata-ana,
Qalmьşam mən jana-jana,

Gөzym dәjmir вir insana,
Әsir ediв mәni aq dev.

*(Polad gәlir, mahnъnъ dinlәjir)*

Polad

Bu sәs nә qәdәr inçә...
Mahnъnъ eşidinçә,
Yrәjim dalqalandъ,
Qәlвim od tutuв jandъ.

*(Birdәn gөzynә aslan sataşъr)*

O nә qorxunç hejvandъr,
A... dejәsәn aslandъr.

*(Aslan Poladъ gөrçәk, ona hyçum edir. Polad aslanla gylәşir: onu jerә vuruв вojnunu вaqlajъr; өzy ilә daqa apararaq)*

Sәni qojmaq olmaz вurda,
Gәl, gәl gedәk qorxunç jurda.

*(Polad aslanla вaraвar daqa dъrmaşъr, Gylzar onu gөrynçә hejrәt vә sevinçdәn caşъr)*

Gylzar

Sәn kimsәn, ej pәhlivan?
Sөjlә, gәlirsәn hardan?
Indijәdәk вu jolu
Kecmәjiв insan oqlu.
Bu saat aq dev durar,
Hәftadъnъ jandъrar.



Polad

Qorxusuz insanam mәn,
Cәkinmirәm aq devdәn.
Qoj xain dev ojansъn,
Qyvvәtimә inansъn.
Gөrsyn mәnim gyçymy,
Gurlajan qъlъnçъmъ.

Gylzar

Sәn әçәв çijәrlisәn,
Gyçlysәn, hynәrlisәn!...
Sөjlә, şanlъ qәhrәman!
Nә mәqsәdin var, hardan
Gәlmisәn вizim jurda?...

Polad

Başqa işim jox вurda:
Mәn parlajan qalxancъn,
Işъq jajan qalxancъn
Gәlmişәm вura jalnъz...
Qalxan hardadъr, aj qъz?

Gylzar

Nә вilirdin, aq devdә—
Tyklәri parlaq devdә
Parъldajan qalxan var,
Işъq jajan qalxan var?
Bunu kim demiş sәnә?...

Polad

Bahar demişdir mənə!

Gylzar

Ah, əziz вaçьm... Bahar...
Uqursuz ajrьlьqlar
Gөz jaşlarь, qəm, кədər,
Zəhərdən açь gynlər
Өmrymy verdi вada,
Gyn gөrmədim dynjada.

Polad

Qьz, adьn nədir?

Gylzar

Gylzar!

Polad

Sənin вaçьndьr Bahar?

Gylzar

Baçьmdьr, ej pəhlivan!
Mənə əziz вaçьmdan
Gətirmisən şad xəвər,
Sənə cox təşəkkyrlər...

Polad

Təşəkkyrə dəjməz, gəl,
Indi hər şejdən əvvəl,
Parlaq qalxanь tapaq.



Gylzar

*(Devin вaşь altьndakь qalxanь gөstərir)*

Həmən qalxan вudur, вax!

Polad

Onda işim dyzəldi,
Diləjim вaşa gəldi.

*(Polad irəli gediв qalxanь devin вaşьnьn altьndan cəkir, dev ojanьr)*

Dev

Adam-madam iji gəlir,
Jaqlь вadam iji gəlir.

*(Poladь gөrynçə)*

Sən kimsən, nədir adьn?
Qəzəвimdən qorxmadьn,
Ajaq вasdьn вu jurda?
Insan gөrynməz вurda!
Bu gөrdyjyn вarmaqlar,
Bu вaşlar, вu ajaqlar
Bөjyk pəhlivanlarьn,
Dөjyşkən insanlarьn
Əlidir, вarmaqьdьr,
Başьdьr, ajaqьdьr...
O adlь qəhrəmanlar
Jaşamьş вir zamanlar,
Vuruşmuş aslanlarla,
Zəhərli ilanlarla,

Axьrda вu qocaq dev—
Bu şyçaətli aq dev
Parcalamьş onlarь,
Burda axmьş qanlarь.

Polad

Dev, gəl məni sanma xam,
Mən devlər qatilijəm.
Səs-kyjynə вaxmaram,
Hop-gopundan qorxmaram.
Var gurlajan qьlьnçьm,
Istəsəm xьnçьm-xьnçьm
Edərəm səni вu an.

Dev

Gəl, ej insan, вaşьndan
Bɵjyk qələt eləmə!

Polad

Cərən-pərən sɵjləmə!
Kişisən, cьx mejdana,
Bulajьm səni qana!

Dev

*(Gyrzyny cəkir)*

Cьxdьm, tut, pajьn gəldi,
Tozun gɵjə jyksəldi.

*(Dev gyrzy Polada vurmaq istərkən Polad gurlajan qьlьnçь cəkir, parlajan qalxanь devin gɵzynə tutur)*



Polad

Parla, parla, qalxanьm,
Qoj kor olsun dyşmanьm!
Gurla, gurla, qьlьnçьm,
Qoj olsun xьnçьm-xьnçьm
Qaвaqьmdakь dyşman!

*(Qalxan parlajьr, qьlьnç gurlajьr, aq dev jerə sərilir)*

Aq dev

Ɵldym, məhv oldum, aman!..

Polad

Zalьmьn sonu вudur.
O gɵstərdijin qyrur
Nə oldu aj jaramaz?!
Haqsьzlьq jerdə qalmaz.

Gylzar

Saq ol, şanlь qəhrəman!
Adlь-sanlь qəhrəman!
Məhv elədin aq devi—
Bu azqьn, alcaq devi.

Polad

Gəl gedək, вaçьm, Gylzar!
Bizi gɵzləjir Bahar.

Gylzar

Gedək, ançaq вir iş var:
Bu qan icən çanavar

Çyrвəçyr ɵlkələrdən,
Əlinə kecən jerdən
Gətiriв jaraşьqlь,
Inçə, parlaq, işьqlь,
Gɵzəl, rəngвərəng daşlar...

Polad

Hanь o qəşəng daşlar?

Gylzar

*(Qaş-daşь gɵstərir)*

Polad qardaş, вudur, вax!..

Polad

*(Sevinçlə)*

Gəl вunlarь aparaq
Baharcьn, вaçьm, Gylzar!

Gylzar

Aparaq! Bir şej də var:
Onu gɵrsən sən əjər,
Yrəjin ucmaq istər.

Polad

O nədir?

Gylzar

Qьzьl quşdur.

*(Aƣaça işarə edir)*

Bax, orda oturmuşdur.
Onu aparsan, Polad,
Lazьm olmaz sənə at.



Uzaq jerə gedirkən
Onun вelinə minsən,
Desən uc flan jerə,
O saat qanad acar,
Quş jyksələr gɵjlərə,
Dedijin jerə ucar.
Bu quşun qanadьndan
Birini cəksə insan,
Alova girsə, janmaz;
Bunu gɵrçək, dajanmaz,
Quş ucar, ucar, gələr,
Onu alar, jyksələr.

Polad

Quşu aparsaq əjər,
Bizə cox xejir dəjər.

Gylzar

Əlвəttə, gəl aparaq.

*(Hər ikisi quşun janьna gedir)*

Gylzar

Mən вu quşu minim, вax,
Sən də min вu aslana,
Bir вaş gedək Muƣana.

Polad

Jaxşь sɵzdyr.

G y l z a r

Quşum, gəl!
Belinə minim, jyksəl!

*(Quş gəlir, Gylzar quşun ʙelinə, Polad aslanьn dalьna minir)*

P o l a d

Aslanьm, Muƣana qac!

G y l z a r

Quşum, durma, qanad ac,
Joldaş ol ʙu aslana,
Məni apar Muƣana.

*(Aslan qacьr, quş ucur)*

*(Pərdə)*



## IV PƏRDƏ

(Xanьn sarajьnьn həjəti. Nөkərlər çərgə ilə dajanmьş. Oçaqda alov janьr. Muziqa calьnьr, nөkərlər oxujur).

N ө k ə r l ə r

Odum, jan a, odum, jan,
Jandьqça, jan, alovlan!
Gəlir sənə ƣəmzəli,
Dilʙər, inçə, məzəli
Gynəş yzly ʙir qurʙan.

Jan, alovum, parьlda!
Şimşək kimi gurulda!
Gəlir sənə ƣəmzəli,
Dilʙər, inçə, məzəli,
Ala gөzly ʙir qurʙan.

*(Muziqa susur)*

1-ç i n ө k ə r

Bugyn jenə Əƶdər xan
Verəçək oda qurʙan.

2-çi nəkər

Qurвan da вir qurвandьr,
Gyl вədənli çanandьr.

3-çy nəkər

Bir sərv вojlu qьzdьr.

4-çy nəkər

Qьz deme, вir ulduzdur.

5-çi nəkər

Nazlьdьr, ƣəmzəlidir,
Gəzəllər gəzəlidir.

*(Xan ə'janlarla gəlir, nəkərlər salama durur)*

1-çi nəkər

Hazьr olun, gəlir xan,
Adlь-sanlь həkmyran.

Xan

*(Gəlir, nəkərlərə)*

Odun qojun, qocaqlar,
Alovlansьn oçaqlar.

*(Nəkərlər oçaqlara odun qojur).*

Xan

*(Nəkərlərə)*

Gəlsin azƣьn gynahkar,
Ysjancь, gəzəl Bahar!

*(Bir necə nəkər cьxьr).*



Xan

*(Başqa nəkərlərə)*

Oçaqlar alovlansьn,
Çəhənnəm kimi jansьn.

*(Nəkərlər oçaƣa odun qojur, muziqa calьnьr, yc-dərd nəkər daƣьnьq saclь Baharь gətirir. Bahar oxujur)*

Bahar

Mən odlu вir insanam,
Yrəjimdə janƣьn var.
Bir ah cəksəm, dənizlər,
Daƣlar, daşlar odlanar.

Azadlьq əmələlilə
Cьrpьnьr dəli gənlym.
Qul kimi jaşamaqdan
Min dəfə xoşdur əlym!

*(Mahnь вitir. Xan Bahara)*

Xan

Aj qьz, joldaşьn Polad
Alcaqlьqda qojdu ad.
Aldatdь Əzdər xanь,
Halaldьr onun qanь.
Əlimə kecsə əjər,
Əz çəzasьnь gərər.
Gənlymy saldьn вəndə,
Ujmadьn mənə. Sən də

Gynahkarsan, asьsan,
Başьmьn вəlasьsan,
Odur gərək janasan.
Baxsьn oda həkmyran,
Dalqalansьn sevinçi.

*(Təlxək xana вaş əjir)*

Təlxək

Ej xan, вu gəzəl inçi
Janmaqa lajьq dejil.

Xan

Uzun danьşma, cəkil!

Bahar

Bu dəhşətli əlymdən
Tyk qədər qorxmuram mən.
Bir gyn вu atəş, vulqan
Səni də jandьrar, xan!

Xan

Cox danьşma!

Təlxək

Həkmyran!
Tələsmə, вir az dajan,
Polad gəlməsə əjər,
Əmr etgilən, nəkərlər
Məni də jandьrsьnlar.



Xan

Səndə вəjyk gynah var:
Sənin səzynə вaxdьm,
Mən Poladь вuraxdьm.
Getdi, dənmədi geri.
Bytyn вu əngəlləri
Tərədən sənsən, gərək,
Sən də janasan, təlxək!
*(Nəkərlərə)*

Dajanmajьn, qocaqlar!
Guruldasьn oçaqlar!
Tez təlxəklə Baharь,
Bu iki gynahkarь
Jandьrьn!

Təlxək

Ej zalьm xan!
*(Ə'janlar təlxəjə)*

Ə'janlar

Halaldьr sənin qanьn!
*(Nəkərlər Baharla təlxəji oda atmaq istərkən вir pəhlivan gəliв xana вaş əjir)*

Pəhlivan

Adlь-sanlь həkmyran!
Polad gəlir!

*(Xan, Baharь və təlxəji jandьrmaq istəjən nəkərlərə)*

Xan

Dajanьn!

*(Nekərlər əl saxlajьrlar. Muziqa calьnьr. Polad aslanьn ystyndə, Gylzar isə quşun вelində icəri girir. Bahar Gylzarь gerçək)*

Bahar

Sevimli вaçьm, Gylzar!

Gylzar

Ah! Əziz вaçьm, Bahar!

*(Gylzar və Bahar quçaqlaşьr, yrəkləri gedir)*
*(Polad xana вaş əjir)*

Polad

Al, вu qьlьnç, вu qalxan!
Kejfin kekəlsin, ej xan!

*(Daş-qaşь verir)*

Al, вu da çavahirat;
Jalancь dejil Polad.

*(Xan daş-qaşь gerynçə, aqlь caşьr)*

Xan

Sejlə gerək, pəhlivan!
Bu gezəl daş-qaş hardan?

Polad

Ej xan, вir qьzьl daq var,
O daqda вir вulaq var,
O вulaqdakь daşlar
Şəfəq salьв parьldar.
O daqda вitən gyllər,
Lalələr, qərənfillər



Jaqutdur, saf inçidir,
Yrəjin sevinçidir.
Daqda вaşqa sir də var:
Gezəl вir qəsir də var.
Orda jazьlmьş: вir an
Bu evdə qalsa insan,
Emry yc jyz il artar,
Ona xoşвaxtlьq catar.

Xan

Durmajьn, pəhlivanlar!
Ə'janlar, qəhrəmanlar!
Hazьrlaşьn səfərə,
Gedək o gezəl jerə.

1-çi ə'jan

Bu əçəв xoş xəвərdir.

2-çi ə'jan

Əçəв gezəl səfərdir.

3-çy ə'jan

Dajanmajьn, aj uşaq,
Gedək, tez hazьrlaşaq.

Polad

Xan saq olsun, ora sən
Gərək təkçə gedəsən.

Xan

Bu işdə nə hikmət var?

Polad

Ora jalnьz quş ucar.

*(Qьzьl quşa işarə ilə)*

Həm də вu qьzьl quş, вax!..

Xan

Ora quş ucar ançaq?

Polad

Bəli, вəli, gərək вiz
Bu saat hər ikimiz,
Girək oda, quş gəlsin,
Bizi alsьn, jyksəlsin,
Ucsun uça gөjlərə,
Getsin o gөzəl jerə.

Ə'janlar

Nə qəriвə səfərdir.

Təlxək

*(Ətrafa)*

Səfər dejil, xətərdir.

Xan

*(Polada)*

İkimiz gedək, Polad,
Sən өzyny oda at,
Mən də gəlim ardьnça!

Təlxək

*(Xana işarə ilə)*

Jaman вiçdir вu qoça.

*(Polad quşun ləlajindən вirini çəkiв oda girir)*

Polad

Mən getdim, sən də gəl, xan!

*(Xan parlaq qalxanь, qьlьnçь, çavahiratь təlxəjə verir)*



Xan

Gəldim, Polad pəhlivan.

*(Xan oda girir).*

*(Quş gəlir, Poladь oddan cьxarьв qьraqa qojur. Xan javaş-javaş janьr)*

Polad

Jan, ej zalьm, azqьn xan!
Jandьqça, jan, alovlan!

Ə'janlar

*(Bəвir xana)*

Ada, qojma, xan jandь,
Jaman jerdə aldandь.

*(Bəвir xan və ə'janlar qьlьnça əl atьrlar. Təlxək parlajan qalxanla gurlajan qьlьnçь Polada verir, Polad qьlьnçь çəkir, qalxanь ə'janlarьn yzynə tutur)*

Polad

Parla, parla, qalxanьm!
Qoj kor olsun, dyşmanьm!
Gurla, gurla, qьlьnçьm!
Qoj olsun xьnçьm-xьnçьm
Bu вəjlər, вu ə'janlar,
Bu qan soran ilanlar!..

*(Qьlьnç gurlajьr, qalxan parlajьr. Ə'janlarьn və pəhlivanlarьn вə'zisi өlyr, вə'zisi qacьr; səhnədə jalnьz Polad, təlxək, Bahar və Gylzar qalьr. Xan janmaqda davam edir)*

Polad

Jan, ej zalьm, azƣьn xan!
Jandьqça, jan, alovlan!
Məzlumlara, qullara,
Açlara, joxsullara
Cəkdirmisən əzaʙlar,
Ⱪədərlər, iztiraʙlar;
Təkdyjyn haqsьz qanlar,
Qopartdьƣьn tufanlar
Sьƣmaz xijalə, aƣьla,
Sьƣmaz hec ʙir naƣьla!

(*Pərdə*)



Azərʙajçan Mərkəzi
Dovlət Kitaʙxanasь
15507

1т. 50qəp

89
С 30
50

М. СЕИДЗАДЕ

# ЗОЛОТАЯ ПТИЦА

ЦК ЛКСМ Аз
Издательство Детской и Юношеской Литературы
Баку—1939